# AZƏRBAYCAN CÜMHURİYYƏTİ DÖVRÜNÜN MUZEY QURUCULARI

**Səbinə İmanova**
ADMİU-nun magistri

*Tarixi tədqiqatın birinci şərti bu günlə keçmiş arasında mənəvi körpü salmaqdır.*

**Əbu Turxan**

Müasir cəmiyyətin özünüdərkində tarixin müxtəlif dövrlərinin dərk edilməsi faktoru mühüm yer tutur. Ölkənin mövcud siyasi vəziyyətini və tarixi yaddaşı özündə əks etdirən muzeylərin keçmişin dərk olunmasında və tarixin qaranlıq çağları haqqında obyektiv düşüncənin formalaşmasında xüsusi rolu var. Tarixi yaddaşın obyektləri dedikdə, geniş əhatəyə malik proseslərin məcmusu nəzərdə tutulur. Və tarixi yaddaş fenomenində qlobal miqyasda baş verən tarixi hadisələrdən tutmuş, ölkəyə, bölgəyə, müəyyən dərnəklərə aid hadisələr ehtivalanır. Tarixi yaddaşın qorunması və formalaşdırılması milli problemdir, bu nöqteyi-nəzərdən də tarixi yaddaşın öyrənilməsi müasir dövrün aktual problemlərindən biridir.

Tarixi yaddaşı özündə ehtiva edən müxtəlif mədəniyyət nümunələri muzey eksponatları kimi olduqca dəyərlidir, bu eksponatların muzeylərdə mühafizəsi tarixi yaddaşın qorunub saxlanması və nəsildən-nəslə ötürülməsi baxımından çox önəmlidir. Ümumiyyətlə, muzey mədəni irsə münasibət formalaşdırır, keçmişə marağı inkişaf etdirir. Məhz bu səbəbdən ölkəmizdə də muzey quruculuğuna, muzey işinin inkişafına böyük diqqət ayrılmış, bu sahədə ciddi və təqdirəlayiq işlər görülmüşdür. "Cəmiyyətin bədii mədəniyyətinin, milli bədii təfəkkürünün inkişafında əsas rol oynayan muzeylər tarixboyu insan tərəfindən yaradılmış bütün sərvətlərin qoruyucusudur. Muzeylərin yaranması, ilk növbədə, estetik zövq və heyranlıqla, yəni estetik funksiya ilə əlaqədar olsa da sonralar tədricən idraki-tərbiyəvi funksiya üstünlük təşkil etməyə başladı". (1, səh. 53-54)

Tarixboyu hər bir xalq müstəqilliyə can atmış, azadlıq yolunda qanlar tökülmüşdür. Keçən əsrin əvvəllərindən alovlanmağa başlayan müstəqillik qığılcımı 1918-ci ildə öz bəhrəsini verdi, Çar Rusiyasının ucqar əyalətlərindən biri olan ölkəmizdə suveren dövlət yarandı. Milli dövlətçilik təməlləri üzərində bərqərar olan Azərbaycan Xalq Cümhuriyyəti yarandığı ilk dövrlərdən başlayaraq milli tariximizə sahib çıxdı. Milli tariximizin qorunub saxlanması, təbliği və gələcək nəsillərə ötürülməsi üçün muzeylərin təsisi zəruri bir fakt kimi özünü büruzə verməyə başladı. Hüseyn bəy Mirzəcamalov, Məhəmməd Ağaoğlu, Həsən bəy Ağayev, Sultan Məcid Qənizadə və digərlərinin gərgin fəaliyyəti nəticəsində "İstiqlal" muzeyi yaradıldı. "Sənələrdən bəri bəslədiyimiz bir arzu var ki, o da vətənimiz Azərbaycanda bir milli muzey təsisidir... Sabiq Rusiya zamanında quracağımız muzeyin adını "Milli muzey" qoymaq fikrində idiksə də, bu gün fərdimizin köksünü qabardan istiqlal şüarına görə, "İstiqlal" muzesi olmasını əhəmiyyətli görürüz". (2)

Azərbaycan İstiqlal muzeyi ölkəmizdə yaradılan ilk dövlət muzeyidir. İstiqlal muzeyinin qurucularından biri olan, bu muzeyin yaradılmasında böyük canfəşanlıq göstərmiş Hüseyn bəy Mirzəcamalov Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində qanunvericilik bölməsinin rəisi idi. Hüseyn Camal Yanar kimi də tanınan Mirzəcamalov qədim tarixə malik olan maddi mədəniyyət nümunələrinin mühafizəsi üçün ölkəmizdə dövlət səviyyəsində fəaliyyət göstərən muzeyin zəruriliyini dərk edirdi. Mirzəcamalov heç də tutduğu mövqeyə təsadüfi gələn şəxslərdən biri deyildi, o, mədəni dəyərlərə böyük önəm verir, bədii yaradıcılıq sahəsində qələmini sınayır, müxtəlif tərcümələr edir, mətbuatda da mütəmadi olaraq publisistik məzmunlu yazıları işıq üzü görürdü. Hələ İstiqlal muzeyi yaradılmamışdan əvvəl Hüseyn bəy Mirzəcamalov yenicə təsis edilmiş Bakı Dövlət Universitetində riyaziyyat fənnindən mühazirə oxuyurdu. Hüseyn Camal Yanar təxəllüsü ilə şeirlər yazan Mirzəcamalov milli teatrın inkişafı üçün də çalışırdı. Məhz bu kimi müvafiq və müsbət göstəricilər Mirzəcamalovun İstiqlal muzeyinin yaradılması sahəsindəki fəaliyyətinin heç də ötəri hislərlə bağlı olmadığını söyləməyə əsas verir.

7 dekabr 1919-cu il tarixində açılan Azərbaycan Xalq Cümhuriyyətinin İstiqlal muzeyi 28 aprel 1920-ci ilə – işğal gününə qədər əhaliyə xidmət göstərdi, muzeyin eksponatları ziyarətçiləri üçün sərgiləndi. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin rəsmən fəaliyyətə başlamasının ildönümü münasibətilə yaradılan muzeydə sərgilənən eksponatlarda milli mədəniyyətimizin özünəməxsusluğu əks olunmuşdu. Tariximizin müxtəlif dövrlərinə aid bu eksponatlar



maddi mədəniyyətimizin parlaq nümunələri kimi böyük dəyər kəsb edirdi. "Muzeydə Azərbaycanın azadlıq və istiqlalına dair sənəd və materiallar, tarixi və maddi mədəniyyət örnəkləri, arxeoloji tapıntılar, silahlar, numizmatika nümunələri, rəsm əsərləri, xalça və xalça məmulatı, bədii tikmələr, dulus və mis qablar, bəzək əşyaları və digər sənət əsərləri, "Qurani-Kərim"in nadir nüsxələri, müxtəlif əlyazmalar və s. toplanmışdı". (3, səh.69)

İstiqlal muzeyinin qurucuları içərisində Hüseyn Mirzəcamalovun və Məhəmməd Ağaoğlunun fəaliyyətini xüsusi qeyd etmək yerinə düşərdi. Hər iki şəxs muzeyin yaradılması, muzey üçün eksponatların toplanması işində əllərindən gələni əsirgəməmişdilər. Qarşıda duran ən ciddi problemlərdən biri də muzeyin hansı binada fəaliyyət göstərməsi idi. Hüseyn bəy və Məhəmməd bəy adıçəkilən problemin də öhdəsindən gəlməyi bacardılar. Müzakirələrdən sonra İstiqlal muzeyinin Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin binasında yerləşdirilməsi qərara alındı. H.Mirzəcamalovun Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin dəftərxanasında qanunvericilik bölməsinin rəisi kimi məsul vəzifədə çalışması problemin həllini sürətləndirdi. Məhz Cümhuriyyət Parlamentinin binasında fəaliyyətə başladığına görə də İstiqlal muzeyi üçün xüsusi bina tikilmədi.

İstiqlal muzeyinin qurucularından biri olan Məhəmməd bəy Ağaoğlu sənətşünas alim kimi tanınırdı. Gimnaziyanı bitirdikdən sonra 1912–1916-cı illərdə Moskva Dövlət Universitetinin şərqşünaslıq fakültəsində təhsil alan Məhəmməd bəy Ağaoğlu hərtərəfli biliyə malik idi. "Geniş erudisiyalı şərqşünas alim kimi tanınır, Azərbaycan, ərəb, fars, rus, ingilis, alman, fransız, latın və yunan dillərini mükəmməl bilirdi. Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasında, həmçinin həmin dövrdə mədəni quruculuq işlərində bir sıra maarif, mədəniyyət və sənət ocaqlarının yaradılmasında, muzeyşünaslıq, qədim maddi mədəniyyət nümunələrini qorumaq sahəsində fəal çalışmışdı. O, Bakıda İstiqlal muzeyi yaradır, eyni zamanda arxeologiya və etnoqrafiya cəmiyyətlərinin təşkilində iştirak edir".(4)

Məhəmməd Ağaoğlu İstiqlal muzeyinin yaradılmasının təşəbbüsçülərindən biri olmaqla bərabər, sənətşünaslıq fəaliyyətini genişləndirir, eksponatları dərindən tədqiq edir, bu sahəyə aid ciddi araşdırmalar aparırdı. Xüsusilə də orta əsrlər türk-islam dünyasının zəngin maddi mədəniyyət nümunələri barədə tədqiqatçılıq fəaliyyəti ilə məşğul olan Məhəmməd Ağaoğlu İstiqlal muzeyi ilə yanaşı, xarici ölkələrin muzeylərində də sənətşünas kimi ciddi işlərə imza atıb. Sovet işğalından sonra vətənə qayıtmayan Məhəmməd Ağaoğlu türk-islam incəsənəti ilə yaxından maraqlanmış, peşəkar sənətşünas kimi bu sahədə iz buraxmışdır. Bu sahəyə aid "Türk incəsənəti tarixi", "İslam incəsənətinin xarakteri haqqında qeydlər", "İslam sənəti tarixi", "XV əsr İran kitab cildləri", "Səfəvi xalçaları və parçaları" və başqa sanballı əsərlər qələmə alıb. Kommunistlərin Bakını işğal etməsindən sonra İran, Türkiyə, İraq, İngiltərə və Almaniya ölkələrinin muzeylərində də elmi-tədqiqat işləri ilə məşğul olan Məhəmməd Ağaoğlunun araşdırmaları muzeyşünaslıq elmi üçün dəyərli töhfədir. İstiqlal muzeyinin digər təsisçisi Hüseyn bəy Mirzəcamalov da sənətşünaslıq fəaliyyəti ilə məşğul idi. Lakin Məhəmməd Ağaoğludan fərqli olaraq, Hüseyn bəy Mirzəcamalov daha çox siyasi sahəyə və siyasi hadisələrin şərhinə üstünlük verirdi. İstiqlal muzeyində məruzə etdiyi "Fransa və Rusiyada böyük inqilablar, onları doğuran amillər haqqında" çıxışı dinləyicilərin böyük marağına səbəb olmuşdu. Həm Hüseyn bəy Mirzəcamalov, həm də Məhəmməd Ağaoğlu "Yaşıl qələm" cəmiyyətinin üzvləri kimi də fəaliyyət göstərirdilər. "Yaşıl qələm" cəmiyyəti İdarə Heyətinin üzvü olan Məhəmməd bəy ömrünün son illərini ABŞ-da keçirmiş və doğulduğu İrəvan şəhərindən çox uzaq bir məmləkətdə vəfat etmişdir. Qədim Abidələrin Müdafiəsi Cəmiyyətinin təsis edilməsində də böyük rol oynayaraq xarici ölkələrin muzeylərində və ali məktəblərində mühüm məsul vəzifələrdə çalışıb. 1926-cı ildə Türkiyə Cümhuriyyətində fəlsəfə elmləri doktoru dərəcəsinə yiyələndikdən sonra, 1927-ci ildən başlayaraq İstanbulda fəaliyyət göstərən Milli Muzeydə İslam incəsənəti bölməsinin sədri, İstanbul Universitetində professor assistenti, Türk və İslam əsərləri muzeyində müavin vəzifəsində çalışıb. "Məhəmməd Ağaoğlu 1929-cu ildən ABŞ-da yaşamış, əvvəlcə Detroyt İncəsənət İnstitutu, sonra Miçiqan Universitetinin professoru kimi fəaliyyət göstərmiş, 1933-cü ildən isə "Art İslamica" ("İslam incəsənəti") məcmuəsinin redaktoru olmuşdur". (5, səh.112) ABŞ-da yaşadığı müddətdə də sənətşünas kimi elmi işlərini davam etdirib, Nyu-York və Miçiqan şəhərlərində türk-islam mədəniyyətinin tədqiqinə dair əsərlər yazıb, milli mədəniyyətimizin okeanın o tayında da təbliğatını aparıb.

Məhəmməd Ağaoğlu və Hüseyn bəy Mirzəcamalovun Azərbaycan Xalq Cümhuriyyəti dövründəki ictimai-mədəni fəaliyyəti içərisində ən önəmli hadisə kimi İstiqlal muzeyinin yaradılması üçün gördükləri işləri vurğulamaq yerinə düşərdi. Düzdür, İstiqlal muzeyi ölkəmizdə

yaranan ilk muzey deyildi. Hələ dahi Azərbaycan yazıçısı və dramaturqu Cəlil Məmmədquluzadə 1896-cı ildə Nehrəm kəndində muzey təsis etmişdi. Nehrəm kənd məktəbində yaradılan bu muzey ölkəmizdə muzeylərin yaradılması sahəsində atılan ilk addımlardan biridir. 7 dekabr 1919-cu ildə yaradılan İstiqlal muzeyi isə rəsmi dövlət muzeyi statusu daşıyırdı. Onun əsasnaməsi də planlı şəkildə hazırlanmış dövlət sənədi idi. Rəsmi möhürü olan İstiqlal muzeyində nadir eksponatlar mühafizə edilir və tamaşaçılara sərgilənirdi.

Dövlət muzeyləri dövlət mülkiyyətindədir və dövlət büdcəsindən maliyyələşdirilir. Onların əksəriyyəti Mədəniyyət Nazirliyi tərəfindən idarə olunur, eyni zamanda digər nazirlik və idarələrin tabeçiliyində dövlət muzeyləri də vardır. Müsəlman Şərqində ilk demokratik respublika – Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşamasına baxmayaraq, dövlət tərəfindən mədəni quruculuq işlərinə böyük diqqət ayrılmışdı. Muzey sahəsinin inkişafı da həmin mədəni quruculuq prosesinin bir hissəsi idi. Azərbaycan Xalq Cümhuriyyətinin mədəniyyət siyasətinin əsasında milli mədəniyyətin tənzimlənməsi, milli dəyərlərin mühafizə edilməsi kimi mühüm məsələlər aparıcı yer tuturdu.

Ümumiyyətlə, İstiqlal muzeyinin dövlət təşkilatı kimi fəaliyyət göstərməsində parlamentin Rəyasət Heyəti xüsusi rol oynamışdır. "Muzeyin təşkili və fəaliyyəti ilə bağlı bütün xərclər Azərbaycan Parlamentinin Rəyasət Heyəti hesabına idi". (6) İstiqlal muzeyinin əsasnaməsinə diqqət yetirməklə həmin muzeyin fəaliyyətinin qaranlıq məqamlarına aydınlıq gətirmək olar. İstiqlal muzeyinin əsasnaməsinə görə, muzeyə daxil olan maddi vəsait yalnız muzeyin təmiri, muzeydə kitabxananın yaradılması və yeni kitablarla zənginləşdirilməsi işi üçün sərf oluna bilərdi. Əsasnaməyə əsasən İstiqlal muzeyinə daxil olan maddi vəsaitin muzeydən başqa digər müəssisələr üçün işlədilməsi qətiyyən yolverilməz bir hal idi. Muzeyin idarəçiliyi yalnız parlamentin Rəyasət Heyəti tərəfindən seçilən nümayəndə tərəfindən reallaşırdı. Rəyasət Heyəti tərəfindən müəyyənləşdirilən səlahiyyətli nümayəndə İstiqlal muzeyini əsasnaməyə müvafiq idarə etməli, İstiqlal muzeyinin əsasnaməsində göstərilən qaydalara heç kim, o cümlədən də xaricdən çağırılmış təcrübəli mütəxəssislər qarşı çıxa bilməzdilər.

Ümumiyyətlə, muzeylər yarandığı dövrdən etibarən mədəniyyətin ayrılmaz bir hissəsi kimi fəaliyyət göstərmişlər. İstiqlal muzeyinin məxsusi məkanı olmasa da bina tikintisi üçün vəsaitin toplanması, fond ayrılması nəzərdə tutulmuşdu. Lakin istiqlalın qısa ömrü bu arzunu reallaşdırmağa imkan vermədi.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə fəaliyyət göstərən Maarif Nazirliyi də maddi dəyərlərimizin qorunması baxımından öhdəsinə düşən işləri artıqlaması ilə yerinə yetirirdi. Nazirliyin təşəbbüsü ilə Bakıda etnoqrafiya muzeyinin yaradılması üçün cəhdlər olmuşdur. Lakin Xalq Cümhuriyyətinin süqutu nəticəsində Maarif Nazirliyinin də fəaliyyətinə xitam verildi. O zaman Maarif naziri vəzifəsində çalışmış Nəsib bəy Yusifbəyli muzey fəaliyyətinə biganə qalmırdı. Dördüncü kabinədə Maarif və Dini Etiqad naziri təyin edilən Rəşid bəy Qaplanov, beşinci və sonuncu kabinədə Maarif və Dini Etiqad naziri vəzifəsində çalışan Həmid bəy Şahtaxtinski, həmçinin 5 mart 1920-ci ildən 28 aprel 1920-ci ilə qədər Maarif və Dini Etiqad naziri vəzifəsini yerinə yetirən Nurməmməd bəy Şahsuvarov muzey fəaliyyətinin inkişafının zəruriliyini yaxından dərk edirdilər.

İstiqlal muzeyinin yaradılmasında Məhəmməd bəy Ağaoğlu və Hüseyn bəy Mirzəcamalovla yanaşı, Həsən bəy Ağayevlə Sultan Məcid Qənizadə də mühüm rol oynayıblar. "Təhvil-təslim aktı formasında "Həmişəlik Azərbaycan Parlamanı ixtiyarında olaraq hələlik parlaman imarətində təsis edilən "Müze İstiqlal" adına müəssislər tərəfindən toplanmış şeylərin Birinci Parlaman Divani-Rəyasətinə təhvil verilməsi haqqında Şərait" adlı sənəd tərtib edilir. Sənəd muzeyin yaradıcıları – görkəmli sənətşünaslar Hüseyn Mirzəcamalov, Məhəmməd Ağayev və Azərbaycan Parlamenti sədrinin müavinləri Həsən bəy Ağayev, Sultan Məcid Qənizadə tərəfindən imzalanıb. Sənəd 1919-cu il noyabrın 6-da, muzeyin açılışına hazırlıq ərəfəsində tərtib olunub". (7)

İstiqlal muzeyinin əsasnaməsinə görə, muzeyin idarəçiliyi Parlaman Divani-Rəyasətə, yəni Azərbaycan Parlamentinin Rəyasət Heyətinə həvalə edilmişdi. İstiqlal muzeyi üçün hazırlanan əsasnaməyə Azərbaycan Parlamentinin Rəyasət Heyətinin baş müavini, müavin, baş katib, katib, mütəşəbbüs və müəssislər imza atmışlar. Məhz əsasnaməyə imza atan bu şəxslər İstiqlal muzeyinin idarə heyətini təşkil edirdi. İstiqlal muzeyinin əsasnaməsi qısa və yığcam olsa da, muzeyin fəaliyyət göstərməsi üçün lazım olan bütün müddəalara toxunulmuşdu. Bu nöqteyi-nəzərdən də tədqiqatçıya tipik dövlət muzeyi əsasnaməsi təsiri bağışlayırdı.

İstiqlal muzeyinin əsasnaməsinə, yəni nizamnaməsinə görə, muzeyə hədiyyə qismində təqdim edilən eksponatlar nə geri qaytarıla bilər, nə də ki, muzey əməkdaşları tərəfindən satıla bilər. Ümumiyyətlə, eksponat kimi qeydiyyatdan keçən əşyaları nə muzeydən xaricə çıxartmaq, nə də kiməsə hədiyyə etmək olardı. İstiqlal muzeyinin fəaliyyəti haqqında ilk sənədlərin biri Məhəmməd Ağaoğlu (sənəddə Məhəmməd Ağayarov kimi qeyd olunub) və Hüseyn bəy Mirzəcamalov tərəfindən 31 adda eksponatın İstiqlal muzeyinə təhvil verilməsi ilə bağlıdır. Eksponatların siyahısından belə nəticəyə gəlmək olur ki, İstiqlal muzeyi kolleksiya cəhətdən o qədər də zəngin deyildi. 6 noyabr 1919-cu il tarixində muzeyə hədiyyə edilən əşyaların təhvil alınması faktını Parlament sədri imzası ilə təsdiqləmişdir. Bu hadisədən bir ay sonra, yəni 7 dekabr 1919-cu ildə İstiqlal muzeyinin rəsmi fəaliyyətə başladığını nəzərə alsaq, ilk ziyarətçilər üçün məhz bu siyahıdakı eksponatların sərgiləndiyi qənaətinə gəlmiş olarıq. Siyahıda əski qılınclar, barıt qabı, müxtəlif məqsədlər üçün yazılmış tilsimlər, dualar və dua qabları, müxtəlif ölkələrə aid qədim mis və gümüş pullar, at şəklində əski qıfıl, müxtəlif materiallardan hazırlanmış daraqlar və daraq qabları, əski xəncər, əl ilə yazılan "Quran" kitabı və müxtəlif yazı nümunələri öz əksini tapmışdır.

İstiqlal muzeyinin yaradıcılarından Məhəmməd Ağaoğlunun sonrakı aqibəti haqqında yuxarıda məlumat vermişdik. Muzeyin arayaərsəyə gəlməsində böyük canfəşanlıq göstərən Hüseyn Mirzəcamalov sovet işğalından və AXC-nin süqutundan sonra Türkiyəyə qaçır və orada mühacir həyatı yaşayır. Təəssüflər olsun ki, onun qardaş ölkədəki fəaliyyəti haqqında dəqiq məlumat yoxdur. Yazıçı, tərcüməçi və ictimai xadim kimi tariximizdə iz buraxmış şəxsiyyət Türkiyədə Hüseyn Camal Yanar adı ilə tanınırdı. 1878-ci ildə Şuşa şəhərində anadan olan Hüseyn Mirzəcamalov 1974-cü ildə İstanbulda vəfat etmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin binasında (indiki Azərbaycan Milli Elmlər Akademiyasının Əlyazmalar İnstitutu)

yerləşən İstiqlal muzeyi ölkəmizdə muzey işinin təşkili sahəsində yeni, parlaq lövhə idi. Sovet işğalından sonra İstiqlal muzeyinin eksponatları Muzekskurs fondlarına və Azərbaycan Dövlət Muzeyinə təhvil verildi. Burada sərgilənən Azərbaycan Xalq Cümhuriyyəti dövrünə aid eksponatların bir qismi Moskva şəhərində fəaliyyət göstərən İnqilab muzeyinə aparıldı. Rəsmi möhürü isə hazırda Azərbaycan Tarix Muzeyində eksponat kimi qoyulub. Bir zamanlar İstiqlal muzeyində sərgilənən "Quran"ın nadir nümunələri, dekorativ-tətbiqi sənət nümunələri və nadir əlyazmalar müxtəlif muzeylərdə sərgilənməyə başladı.

70 illik sovet əsarəti xalqımızın qəlbindəki azadlıq atəşini söndürə bilmədi. Ölkəmiz ikinci dəfə müstəqillik əldə etdikdən sonra bir çox sahələrdə olduğu kimi, muzey sahəsində də önəmli islahatlar aparıldı. İstiqlal muzeyinin adının illər sonra bərpası məsələsi də bu sahədə aparılan mühüm işlərdən biridir. "Azərbaycan İstiqlal muzeyi – əsası 1991-ci ildə Bakıda qoyulmuşdur. 1919-cu ildə təşkil edilmiş İstiqlal muzeyinin adını daşıyır. Eksponatların ümumi sayı 20 minə yaxındır. Muzeyin ekspozisiyası Azərbaycan xalqının ən qədim zamanlardan bu günə qədər olan milli azadlıq mübarizəsini, onun ərazisindəki ilk dövlət təsisatlarını və bu təsisatların sərhədləri xaricindəki mədəni, sosial və iqtisadi inkişaf tarixini əks etdirir. Muzeydə qədim nadir əşyalar, numizmatik kolleksiyalar, fotoşəkillər və digər eksponatlar saxlanılır". (8, səh. 722)

Müasir dövrdə muzeylər mədəniyyətin yaranması, formalaşması və inkişafı tarixinin öyrənilməsi, retrospektiv məlumatların yayılması, tədris fəaliyyətinin məzmunu və formalarının zənginləşməsi faktorları içərisində xüsusi yer tutur. Muzeylər sosial yaddaşın və nəsillərin davamlılığının qorunması üçün əsas missiyanı öz öhdəsinə götürmüş təsisatlardır. Gənc nəsildə vətənə sevgi, onun tarixinə hörmət hissi aşılamaq cəmiyyət üçün xüsusilə vacibdir. Bu baxımdan da muzeylər gənclərin vətənpərvərlik tərbiyəsində həlledici əhəmiyyət kəsb edir. Muzeylər maddi mədəniyyət nümunələrinin təfsiri, qorunması, tarixi və mədəni irsin təbliği yolu ilə cəmiyyətin həyatında çox böyük rol oynayır. Hal-hazırda innovativ texnologiyalar muzeylərin daha uğurla işləməsinə imkan yaradır. Kompüter texnologiyası və internetin inkişafı ilə virtual muzeylər meydana çıxır. Bütün bunlar gənc nəslin yeni bir istiqamətdə və yeni imkanlarla tərbiyəsi üçün böyük töhfədir. ◆

**Ədəbiyyat:**

1. Ağayev R., Qurbanova E., Əlizadə A. Muzeylərdə elmi-tədqiqat işinin təşkili və metodikası fənni üzrə tədrisin Baloniya təhsil sisteminə uyğunlaşdırılması və tətbiqi. Bakı, 2011, 241 səh.
2. "Azərbaycan" qəzeti, 23 sentyabr 1919.
3. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. II cild. Bakı, "Lider" nəşriyyatı, 2005, 472 səh.
4. Məhəmməd Ağaoğlu. https://az.wikipedia.org/wiki/
5. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. I cild. Bakı, "Lider" nəşriyyatı, 2005, 440 səh.
6. Mehparə. Xalq Cümhuriyyətinin mədəniyyətimizə verdiyi töhfələr. "Mədəniyyət", 2010.- 28 may, s. 7.
7. Savalan Fərəcov. İstiqlal Muzeyini yaradanlar: Hüseyn Mirzəcamalov. http://medeniyyet.az/page/news/12645/
8. Azərbaycan Milli Ensiklopediyası: Azərbaycan. Azərbaycan Milli Ensiklopediyası. NPB, Bakı, 2007. 883 səh.

**Резюме**

Азербайджанский музей Независимости был первым государственным музеем, созданным в нашей стране. Следует обратить особое внимание на деятельность основателей музея Независимости Гусейна бека Мирзаджамалова и Мухаммеда Агаоглу. Оба сделали все возможное, чтобы создать музей Независимости и собрать экспонаты для этого музейа. В статье приводятся сведения о строительстве музея в период существования Азербайджанской Демократической Республики, работе создателей музея в области исследования и популяризации нашей культуры, а также о принципах создания и формирования музея. Также, в статье даются сведения о положении музея и выставленных экспонатах.

**Ключевые слова:** Азербайджанская Демократическая Республика, создание музеев, Музей Независимости, Гусейн бей Мирзаджамалов, Мухаммед Агаоглу.

**Summary**

The museum founders of the Azerbaijan Democratic Republic periodThe Independence Museum of Azerbaijan was the first State museum that was established in our country. Its very important to mention Huseyn bey Mirzajamalov and Mahammad Aghaoglurs role as the creators of The Independence Museum. Both of them did their best in order to establish this museum and collect the exhibitions for it. The Article is provided with the information about the construction of museums during Azerbaijan Democratic Republic, the creators of The Independence Museum and their hard work on investigating and popularizing our culture, as well as the establishment and formation stages of this museum and its work principles. Also, The Regulations of The Independence Museum and the information about the exhibitions that are shown in this museum are stated in this Article.

**Key words:** Azerbaijan Democratic Republic, creation of museums, Museum of Independence, Huseyn Bey Mirzajamalov, Muhammad Agaoglu.